Azərbaycan Respublikası Vəkillər kollegiyasının sədri

cənab Anar Bağırova

Cəlilabad rayon Göytəpə şəhər sakini

Rüstəmov Nahid Rafiq oğlu tərəfindən

## Təşəkkür məktubu

Bu məktubu fərəh hissi ilə sizə ünvanlayıb bildirirəm ki,Bakı şəhər "Güvən" Vəkil bürosunun vəkili cənab Tural Şahbazovun mənim çətin,hüquqlarımın açıq aşkar,qərəzli şəkildə tapdalandığının əzabını çəkdiyim günlərimdə ümid bəsləyərək uzatdığım əli geri qaytarmayaraq vaxtında cəsarətlə göstərdiyi keyfiyyətli minimum rüsum məbləği qarşılığında hüquqlarımın pozulmasının qarşısını aldı. Bu gün yeni nəsil vəkillər arasında belə cəsarətli,peşakar ən öndə yüksək insani keyfiyyətli vəkilin olması sizin rəhbərliyiniz sayəsindədir.Mən bir vətəndaş kimi mənə,ailəmə bəxş edilmiş bu qürurverici sevinc görə ölkəmizin başçısı cənab İlham Əliyevə,həmçinin şəxsən sizə və vəkil Tural Şahbazova qəlbən minnəttaram. Belə bacarıqlı hüquq müdafiəçilərinin çox olması nəticəsində biz gənclərin pozulmuş hüquqlarınının bərpası üçün lazım olan formada və profisional şəkildə məhkəmələrin diqqətinə hüquqi yolla məlumatların çatdırılmasından sonra qarşı tərəfin istənilən fiziki və hüquqi şəxs olmasından asılı olmayaraq haqq ədalət sonda qələbə çalır.

Qeyd edim ki,mən Vəkil Tural Şahbazovu təsadüf nəticəsində sosial şəbəkələrin birində yayımlanmış məlumata rəy bölməsində yazdığı rəy nəticəsində məhz mənə lazım olan vəkili tapdığımı fərq edərək onunla əlaqə saxladım.8 il vicdanla xidmət etdiyim dövlət orqanından öncəki bilavasitə və birbaşa rəhbərlərimin qərəzli mövqeyi nəticəsində işdən çıxarılmağımla bağlı ilk iki məhkəmə pilləsində uğursuzluğum barədəTural müəllimə məlumat verdiyimdə mənə "narahat olma,danışdığından qərəzli davranışlar mənə aydındı",-deyərək yalnız minimum ödəniş qarşılığında qanunsuz və qərəzli

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 640
« 05 » 02 2026

şəkildə işdən çıxarılmağımı sübut edərək işimə bərpa edəcəyinə ümid vermişdir.Dəyərli Vəkil Tural şahbazovun Ali Məhkəməyə yazdığı qısa, lokanik ərizəsi nəticəsində qarşı tərəfin xeyrinə çıxmış 2 məhkəmə qərarı ləğv olunaraq iş apeliasiya məhkəməsinə geri qaytarılmışdır.Apeliasiya məhkəməsində Tural müəllimin bacarığı,qarşı tərəfin vəkilini sübutlarla və bacarığı ilə açıq aşkar üstələməsi məni,hətta deyərdim məhkəmə hakimlərini heyrətə gətirərək işimə bərpa olunmağımda və 2 illik məcburi işburaxma üçün ödəniş almağım üçün xeyrimə qərar çıxarılmağında yardımçı oldu.

Bir daha aparılan səmərəli hüquqi islahatlara görə ölkə başçısına cənab İlham Əliyevə,ali məhkəmənin və digər məhkəmələrin bütün ədalətli rəhbərliklərinə və hakimlərinə,həmçinin vəkillər kollegiyasının tərkibində peşakar,savadlı və cəsarətli vəkillər olduğuna görə şəxsən sizə və hüquqlarımı bərpasında cəsarətlə göstərdiyi hüquqi yardıma görə Vəkil Tural şahbazova dərin minnəttarlığımı bildirirəm.

Alllah sizlərin qorusun və həmişə qəlbinizdə olan yüksək insani dəyərləri əskik etməsin.

**Hörmətlə**

**İmza:** **Rüstəmov Nahid Rafiq oğlu.**

**02.01.2026-cı il.**